# Azərbaycan, Türk bayrağı



Yusif NƏĞMƏKAR

Məğrurluğu tərkedilməz,
Siz sancılan Yurd yenilməz -
Ey Tanrısal, vəsfəgəlməz
Azərbaycan, Türk bayrağı.

Varlığınız güvəncimiz,
Yarlığınız - yar incimiz,
Zəfər donlu sevincimiz -
Azərbaycan, Türk bayrağı.

Ay, ulduz - səmavi dəstə,
Bəyazlıq ali al üstdə,
Al da, yaşıl da ruh bəstə -
Azərbaycan, Türk bayrağı.

Atlaz zəmin üstdə qumaş,
Qoşa namus, qoşa ardaş,
Qoşa sirdaş, qoşa qardaş -
Azərbaycan, Türk bayrağı.

Mərdlik - əzəl ünvanınız,
Arkadaşlıq - hər anınız,
Həp birlikdə dalğalanız -
Azərbaycan, Türk bayrağı.

Birdən yaranan ikilik,
İkilikdən doğan birlik,
Hər çalarında dirilik -
Azərbaycan, Türk bayrağı.

Anası bir - əkiz övlad,
Birdi əsli, soyu, əlbət,
Ey bir millət, iki dövlət -
Azərbaycan, Türk bayrağı.

Hər zəhmi, zəhmətçiyi bir,
Hər rəhmi, rəhmətçiyi bir,
Əsgəri, Mehmetçiyi bir -
Azərbaycan, Türk bayrağı.

Bu vəhdətdən ha yaz, keçməz,
Qış adlayıb, ayaz keçməz,
Arasından Araz keçməz,
Azərbaycan, Türk bayrağı.

Totemi-Bozqurd-Göy oğlu,
Savaş - yolgöstərən ağlı...
Qurd dişi nəzərə bağlı -
Azərbaycan, Türk bayrağı.

Kəsər söz, ayıq baş, ağ üz,
Şərqi-türküsü bir ağız,
Kökü Şumer, Şaman, Oğuz -
Azərbaycan, Türk bayrağı.

Oğuz Qayı boyu doğrul,
Süleyman oğlu Ərtoğrul;
Ər nəsildən Osmanı bul,
Azərbaycan, Türk bayrağı.

Alban, Qıpçaq, Hun börküyəm,
Şərhsiz bir şərqi, türküyəm,
Azərbaycanım - Türkiyəm -
Azərbaycan, Türk bayrağı.

Biz Türkləriz - mərdlər dəsi,
"Çadırımız - göy qübbəsi";
Bilgə Kağan təntənəsi -
Azərbaycan, Türk bayrağı.

Hürr bəhərindən barınım...
Andım, imanım, "Quran"ım,
Pak qibləm yönü Turanım -
Azərbaycan, Türk bayrağı.

Ozandan əzana gələn,
Yazandan yozana gələn,
Dürüst bir mizana gələn
Azərbaycan, Türk bayrağı.

Şəhid qanıyla güllənən,
Hünər şanıyla dillənən,
Çanaqqalada yellənən
Azərbaycan, Türk bayrağı.

Zaman-zaman zülmü tərk mən,
Yer üzündə göyə görk mən...
Ulu Səlcuq, Təkə Türkmən -
Azərbaycan, Türk bayrağı.

Yetirilən - ayparası,
İtirilən - xətər yazı...
Qarış-qarış qaytarası -
Azərbaycan, Türk bayrağı.

Zülmətlər biçib, gəldiniz,
Sidqən and içib, gəldiniz,
Odlardan keçib, gəldiniz
Azərbaycan, Türk bayrağı.

Məhəbbətdir qoynundakı,
Suyu, odu, yeli, xakı,
Ankara, İstanbul, Bakı -
Azərbaycan, Türk bayrağı.

Güman yeri Yer bəndimin;
Təbrizimin, Dərbəndimin...
Hər şah misram, hər bəndimin
Azərbaycan, Türk bayrağı.

Ağrıdağın ağı zərdi,
Ruh nə əkdi - can becərdi,
Ərzurumdu, Kəlbəcərdi
Azərbaycan, Türk bayrağı.

Göydə laylan, Yerdə yer aş,
Ulduza dön, günə yaraş,
Şuşa, İzmir, Gəncə, Maraş -
Azərbaycan, Türk bayrağı.

Ağ, Mərmərə, Egey, Xəzər,
Qara dəniz - aydın nəzər...
Könül-könül, əl-əl gəzər
Azərbaycan, Türk bayrağı.

Dönməz qəlb - Kövrək "şüşə"li,
Həm səkkiz, həm beşguşəli,
Əzəl İmandan rişəli
Azərbaycan, Türk bayrağı.

Şəhpər qanadlı istiqlal,
Təpər inadlı istiqbal,
Alın yazım - qədər, iqbal -
Azərbaycan, Türk bayrağı.

Eeheyy, şərə uzanan əl,
Eşit, bədxah, xəbis əməl,
Sarsılmazdır bu tunc təməl -
Azərbaycan, Türk bayrağı.

Qərib bilmə, nankor yağı,
Gelibolu, Qarabağı!..
Gözmüzün qarası, ağı
Azərbaycan, Türk bayrağı.

Ruhu göylər, göyü Göytürk,
Bayanı xan, bəyi bəy türk,
Mutlu millət, milli, yey türk -
Azərbaycan, Türk bayrağı.

Qayələnsin, bəyan olsun,
Ayələnsin, əyan olsun!..
Cahana nur yayan olsun
Azərbaycan, Türk bayrağı.

Haqqa səslər bölgələri:
Qitələri, ölkələri,
Gündoğandır kölgələri -
Azərbaycan, Türk bayrağı.

Baş-başadır miz üstündə,
Yeri könül, göz üstündə,
Önündəyik diz üstündə -
Azərbaycan, Türk bayrağı.

Doğma yurdların can səsi,
Cümhuriyyət iradəsi,
Məslək, amal təntənəsi -
Azərbaycan, Türk bayrağı.

Sancıl qüdrət dərgahında,
Yerin, göyün cinahında,
Ucal Tanrı pənahında
Azərbaycan, Türk bayrağı.